Rəşid MƏHƏRRƏMOV*

# TÜRKLƏRİN ETNİK TARİXİNİN DÜZGÜN TƏDQİQİNİN ÇƏTİNLİKLƏRİ

**Açar sözlər:** Türklər, etnogenez, avropamərkəzçilik, "şəhərcik", tarix və tarixçinin siyasiləşməsi, inanmamaq problemi.

**Key words:** turks, ethnogenesis, European centrism, "campus", history and historian's politicization, the problem of not believing

**Ключевые слова:** Тюрки, этногенез, евроцентризм, "городище", политизирование истории и историка, проблема недоверие.

Bəşər övladının keçmə-keşli tarixində ayrı-ayrı xalq və millətlərin tarixinin öyrənilməsi səviyyəsi eyni deyildir və tarixşünaslıqda qəbul olunub ki, tarixləri az öyrənilən xalqlardan biri, bəlkə də birincisi türklərdir. Tariximizin çağdaş dövründə də çox maraqlı və haqqında elmi polemikalar bu gün də səngiməyən türklərin etnik mənsubiyyəti, bütövlükdə etnogenezi problemi kifayət qədər aktuallıq yükü daşıyan milli-tarixi problemlərdəndir. Zira türklərin tarixi və etnogenezi avropamərkəzçilik baxışı müstəvisində öyrənilir.

Avropamərkəzçilik və ya ənənəvi tarix elmi XIX əsrin 30-cu illərinin əvvəllərində alman fəlsəfəsində "tarixi" və "qeyri-tarixi" xalqlar haqqında tezisin qəbul edilməsi nəzəriyyənin başlanğıc kökləri hesab olunur. Burada sonunculara müstəqil dövlət yaratmaq qabiliyyəti olmayan ruslar da daxil edilmişdi. Avropamərkəzçilik bir qədər kobud ifadə etsək, öz təbiəti və mahiyyəti etibarilə şövinist bir nəzəriyyədir. Bu nəzəriyyəyə görə azdan tutmuş çoxa qədər qabaqcıl, yəni mütərəqqi nə varsa bütövlüklə hamısı Avropada meydana gəlmişdir. Avropa əsrlər boyu sivilizasiyanın məşəli, tərəqqinin mənbəyi, əlçatmaz etalondur. "Asiya" sözü isə əsrlərlə geriliyin, vəhşiliyin, barbarlığın və primitivliyin birbaşa sinonimi olub (3, səh. 55-56).

Avropamənkəzçilik elm deyildir, tarixi məsələlərin həllində avropalıların və hindavropalıların maraqlarından çıxış edən, ilk yaranışdan Avropanın yalnız avropalılara məxsus olduğunu, Asiyanın bir çox regionunda ilk əvvəl yalnız hindavropalıların yaşadıqlarını, başqalarının, qeyri-hindavropalıların indiki yaşayış yerlərinə çox sonralar gəldiklərini sübut etməyə çalışan avropalıların ideologiyasıdır. L.N.Qumilyovun yığcam şəkildə ifadə etdiyi kimi, avropamərkəzçiliyə görə, "bütün dünya Avropanın yalnız barbar periferiyasıdır" (5, səh. 319).

* **Məhərrəmov Rəşid** - GDU-nun ümumi tarix kafedrasının doktorantı, e-mail;residmaherremov@mail.ru





Avropamərkəzçilik tarix elmində istiqamətverici və hökmran mövqeyə malik olanda Avrasiyada qeyri-hindavropa xalqları və qeyri-tarixi xalqlar sırasına daxil edilən türklər arasında hələ tarixçi və dilçilər yox dərəcəsində idi. Görünür, XVIII əsr fransız maarifçi-filosofu, Böyük Fransa burjua inqilabının nəzəri cəhətdən hazırlanmasının birbaşa iştirakçılarından biri L.S.Monteskye öz "İran məktubları" əsərində təsadüfən yazmırdı ki, müzəffər xalqın yalnız tarixçiləri çatışmayıb ki, onların ağlasığmaz qələbələrinin şöhrətini yaysınlar.

Nə qədər ölməz əməllər dəfn olunub. Tatarlar (türklər) tarixlərini bilmədiyimiz nə qədər dövlətlərin əsasını qoyublar. Bu cəngavər xalq gündəlik şöhrəti ilə məşğul olub, əbədi məğlubedilməzliyinə inanıb keçmiş qələbələrinin əbədiləşdirilməsi qayğısına qətiyyən qalmamışdır (15, səh. 106).

Öz tarixini milli eqoizm və şovinizm mövqeyindən öyrənmək, şərh etmək bəşəriyyətə, ümumdünya xalqlarının ən ülvi və müqəddəs duyğularına xəyanətdir. Milli eqoizm və şovinizm mənfur emosiyalarla bağlı olduğundan şişirtməyə, saxtakarlığa və böhtana maildir. Öz xalqını az qala yer üzündə yaranan ilk xalq elan etmək, bu zəmində başqa xalqlara yuxarıdan baxmaq milli eqoizmin və şovinizmin ən rəzil formalarından biridir (10, səh. 7).

Hər bir xalqın tarixinin şərhində yeganə meyar düzgünlük olmalıdır. Əgər tarixçilər hər hansı mərhələnin təsvirində yanlışlığa yol veriblərsə, ya saxtakarlığa dözüblərsə, sonrakı mərhələnin bəlkə dürüst təsviri də əvvəlki mərhələlərlə uyuşmadığından, məntiqi davam olmadığından əyri görünəcək, xalqda öz tarixinə inamsızlıq oyadacaqdır. Səhvlərdən səhv, saxtakarlıqdan saxtakarlıq törəyəcəkdir (10, səh.8).

Avropamərkəzçiliyin bilavasitə təsiri altında meydana gələn və öz inkişafını davam etdirən türkologiya indi də belə bir tendensiyalı fikirlə razılaşırlar ki, Qara dəniz ətrafına, Qafqaza, Ural-Volqaboyuna, Mərkəzi Asiyaya, Qərbi Sibirə türklər guya "xalqların böyük köçü" zamanı və ya ondan sonra gəliblər. Onların fikrincə, bu vaxta qədər orada hindavropalılar yaşamışlar.

Bu ruh Mərkəzi Asiya tarixinin qədim (e.ə. II minillikdə) etnik problemlərinə həsr olunmuş, 1977-ci ilin oktyabrında Düşənbə şəhərində ictimai elmlər sahəsində əməkdaşlıq üzrə Sovet-Hind komissiyasının təşəbbüsü ilə keçirilən beynəlxalq simpoziumun işində də üstünlük təşkil etmişdir. Simpozium belə nəticəyə gəlmişdir ki, "E.ə. II minillikdə Anadolu, Mesopotamiya, İran, Hindistan və Çin sərhədlərinə qədər olan ərazidə hind-iran xalqları mövcud olublar və onların bu regionların sosial-iqtisadi inkişafının və xalqların formalaşmasının əsasını qoyduqları e.ə. I minilliyə aid tarixi şəhadətlərlə sübut edilir" (18, səh. 20; 9, səh. 23). Avropamərkəzçi istiqamətli bir çox əsərlərdən də məlum olur ki, Ural-Volqa boyu, Qərbi Sibir, Şimali Qara dəniz ətrafı regionlarda türklər yalnız VI-VII əsrlərdə köçərilər kimi peyda olublar və burada "yerli", güclü, mədəni hindavropalıları türkləşdiriblər. Qafqazda və Kiçik Asiyada isə onlar yalnız XI əsrdə peyda olub və yerli hindavropa xalqlarını türkləşdiriblər. Yalanlardan yoğrulmuş bu cəfəng uydurmalara diqqət etdikdə, aydınca görünür ki, ağıllı avropamərkəzçilər birdən-birə iki səhv edirlər. Axı, assimiliasiyanın şərtlərinə görə, əvvəla, iqtisadi-mədəni cəhətdən daha yaxşı inkişaf edən, ikincisi, bir qayda olaraq, yerli xalq gəlmələri özününküləşdirir, yəni assimiliasiya edir. Onda bəs "gəlmə" və iqtisadi-mədəni inkişafına görə zəif olan türklər inkişaf etmiş hindavropalıları, yaxud hindiranlıları necə türkləşdirdilər.

Türklər, onların nəsilləri və tayfalarının nə vaxt meydana gəldiyi dəqiq məlum deyil. Tarix elminin və tarixçilərin vəzifələri də elə ondan ibarətdir ki, məlum olmayanları axtarsın və tapsın. Heç olmasa keçmişin olmuşlarına təxmini də olsa yaxınlaşsın, həqiqətə çatmağa çalışsın. Tomas Mann yazırdı: "Keçmiş – deyilməyənlərin dərin quyusudur... Odur ki, praktik olaraq bu və ya digər insan birliyinin, xalqın yaxud bir inanclı ailələrin tarixi şərti başlanğıc nöqtəsi ilə müəyyən edilir, hərçənd bizə yaxşı məlumdur ki, quyunun dərinliyini ölçmək mümkün olmayacaq, xatirələrimiz elə ilk mənbədə dayanıb qalacaq" (16, səh.35-96; 1, səh.3-71).

Bəs etnosun tarixinin ilk mənbəyi kimi nəyi götürmək və başlanğıc nöqtəsini nə hesab etmək gərək? Nəslin və ya tayfanın müəyyən edilməsi zamanı bəzi tarixçilər məsələn, qədim Şərq xalqlarının bilicisi Q.Y.Qrim Qrijimaylo insanların fiziki quruluşunu, yəni gözlərin, saçın, sifətin rəngini, bədən quruluşunu və s. birinci faktor hesab edirdi. O, belə hesab edirdi ki, dil çox tez dəyişir, assimilyasiya edilir və odur ki, etnosun müəyyən edilməsi üçün etibarlı amil ola bilməz (4, s.9-18). Digərləri, xüsusən tarixçi-dilçilər müəyyən bir ərazidə yaşayan insanların onlardan birinin dili vasitəsilə anlaşdıqlarını nəzərə alıb, dil tarixi məlumatlarını önə çəkirlər. Öz dili olmayan etnos deyildir, odur ki, insanın hansı etnosa məxsus olduğunu dil müəyyən edir. Bu zaman dil paleontologiyası daha vacib əhəmiyyət daşıyır. Çünki o təkcə dilə aid deyil, yazıya qədər olan dövrlərin də maddi və mənəvi mədəniyyətinə dair informasiya verə bilir. Arxeologiya xalqların yazıya qədərki tarixinin öyrənilməsi ilə məşğul olur və bütövlükdə etnosların təyin edilməsinə kömək edir, paleontologiyanın köməyi ilə isə qazıntı zamanı aşkarlanan insanın konkret olaraq hansı tipə aid olduğunu müəyyənləşdirir.

Türk xalqlarının etnogenez məsələsinin həlli böyük ölçüdə "iskid" problemlərinin, iskidlərin və onların nəsillərinin etnik mənsubiyyətinin müəyyənləşməsindən asılıdır.

İskidlərin irandilli olması haqqında mülahizə və hökmləri hətta Herodotun müşahidə və müddəalarını K.Q. Menqeş rədd edir.

"İskidlərə irandilli kimi baxmaq (buna adətən Herodotun iddiaları ilə razılaşaraq yol verilir) həddən artıq şübhəlidir. Əgər iskid dilindəki ümumi adlar məsələn, köçəri xalq olan iskidlər üçün ən zəruri predmetlər sayılan "köç arabası", "çadır" kimi sözlər İran və ya Hind-Avropa etimologiyasını təsdiq etmirsə, xüsusi İran adlarının bu dildə (iskid dilində) çoxluğu kifayətləndirici sübut deyildir. Lakin iskidlərə İran təsiri çox qüvvətli olmuş və mümkündür ki, skolatlar – "çar iskidləri" və bəzi başqa hakim qruplar tamam iranlaşdırılmışdır" (11, səh. 29-30).

Tarixin köməyi ilə "Keçmişi dərindən anlayaraq, biz bu günümüzü aydınlaşdırırıq, keçmişin dərinliklərinə dalaraq, gələcəyin mənasını qavrayırıq, geriyə nəzər salaraq irəli addımlayırıq" (12, səh. 181).

Təəssüf ki, insan təbiətinin və insan cəmiyyətinin öyrənilməsinin unikal "kompası" - olan bu elm zaman-zaman "inkişaf edib" özünün öyrənmək funksiyasını dəyişib siyasətin və siyasətçilərin xüsusi maraqlarına xidmət edən vasitəyə çevrilmişdir, yəni tarixi hadisələrin mahiyyəti, onun əsl məna dəyəri təhrif edilərək saxtalaşdırılmağa başlanmışdır. Bu proses öz başlanğıcını bir-birinə zidd ictimai insan qruplarının və qruplar arasındakı münasibətləri tənzimləmək zərurətindən yaranan qurumların, yəni

dövlətlərin yaranması dövründən götürür. Tarix hələ elmə çevrilmədiyi zaman kəsiyində yaranan salnamələrdə, xronoqraflarda belə, siyasi tendensiyalılıq, siyasi maraq yönü özünü göstərməkdə idi və sonrakı bütün zamanlarda bu yön yüksələn xətlə inkişaf etmişdir. Görünür dekabrist Lunin təsadüfən demirdi ki, "Tarix bizə təkcə maraq üçün lazım olmayıb, o həm də bizi siyasətin ən yüksək sahəsinə istiqamətləndirir" (12, səh.130).

Tarixin və tarixçinin siyasiləşməsi prosesi özünün pik nöqtəsinə XX əsrin başlanğıcında, var olmaq durumu ideoloji-siyasi amilə daha çox söykənən SSRİ-nin (Sovet cəmiyyəti ictimai-iqtisadi zəmin üzərində qurulmadığından totalitarizmə və ideoloji-siyasi təbliğata arxalanırdı) zamanında çatdı. İnsanların sosial müdafiəsi baxımından (pulsuz təhsil, pulsuz müalicə, pulsuz istirahət və s. hüquqları) digər ictimai quruluşlara nisbətən müəyyən üstünlüklərə malik olsa da, ideoloji-siyasi cəhətdən çox böyük naqisliklərə sahib olan sosializm sistemi tarixin tədqiqinə, xüsusilə sovet ittifaqına daxil olan ayrı-ayrı xalqların tarixinin obyektiv araşdırılmasına əngəl olaraq, onu siyasiləşdirərək təhrif olunmağa istiqamətləndirirdi.

Elə bir ictimai-siyasi vəziyyət yaranmışdır ki, qatığın ağlığını sübut etmək ona qara deməkdən çətin idi. Türklərin nəinki tarixinin, xüsusilə onun etnik tarixinin tədqiq edilməsi, hətta türk sözünün dilə gətirilməsi belə yasaqlanmışdır.

Tarixin siyasiləşməsindən daha çox türk xalqları zərər gördü. Çünki bu xalq tarixin ayrı-ayrı dövrlərində dünyanı öz qüdrətləri ilə sarsıtmış, bir çox dövlətləri diz çökməyə, türklərə tabe olmağa məcbur etmişdir. Bütün bunları etiraf etmək isə, əhalisinin beşdə birini türk xalqları təşkil edən bir dövlətin, daha dəqiq desək, bir imperiyanın milli siyasət proqramına və ideoloji platformasına uyğun gəlmirdi. Odur ki, türk öz tarixi keçmişini bilməməli, milli kimliyini, mənşəyini anlamamalıdır, axı türk özünü dərk edəndə daha güclü olur. Milli özünü dərketmənin meyar daşıyıcısı olan milli kimlik isə hər bir xalqın mənşəyinə, genezisinə bağlıdır. Bunu yaxşı bilən rus-sovet, erməni-fars tarixçiləri yuxarıdan verilən "elmi tapşırıqları" yerinə ye-tirərək türklərin mənşəyinin bağlı olduğu qədim türkdilli tayfaların, xüsusilə iskidlərin özgələşdirilməsi üçün bütün elmi potensiallarını ortaya qoyurdular.

Tarixin və tarixçinin siyasətdən kənar olduğu, hələ siyasiləşmədiyi dövrdə insanların tarixi keçmişi daha obyektiv, daha tərəfsiz araşdırılmışdır. Türklərin etnik kökləri də, onların mənşəyi problemi də hələ eradan əvvəl I minillikdə tarixi araşdırmanın predmeti olmuşdur. Türklərin qədim əcdadları olan iskidlər haqqında məlumatları müxtəlif mənbələrdən əldə etmək mümkündür, lakin bunların içərisində ən tam və etibarlısı Herodotun "Tarix" əsəridir.





Kitabın iskidlərin fars işğalçılarına qarşı mübarizəsinə həsr edilmiş dördüncü bölməsi faciə Allahı Melpomenin adı ilə adlandırılıb. Etiraf etmək lazımdır ki, Skifyaya faciə gətirən fars və yunan koloniyalarına qarşı mübarizəni nəzərə alsaq bu ad təsadüfi deyildir.

Herodot qeyd edir ki, iskidlər Daranın hücumunun qarşısını almaq üçün Skifiya Federasiyasına daxil olan bir sıra tayfaların, o cümlədən tavrlar, aqafirslər və ya aqadirlər, nevrlər, androfaqlar, melanxlenlər, gelonlar, budinlər və savromatların çarlarını müşavirəyə topladı və Daraya qarşı birgə ölüm-dirim mübarizəsinə çağırdı (9, səh. 131-132).

Fikrimizcə, əgər bu tayfalar irandilli olsaydılar, onlar Daranın irandilli qoşununa qarşı vuruşmazdılar, Dara isə öz din və dil qardaşlarını təhdid etməzdi. Bu, o deməkdir ki, adları çəkilən skif tayfalarının türkəsilli olmaları tam əsaslıdır.

Azərbaycan türklərinin etnogenezi və bütövlükdə bu zavallı xalqın etnik tarixinin öyrənilməsi, onun qədim dövlətçilik ənənələrinin və təkrarolunmaz mədəniyyətinin tədqiqi aktuallıq kəsb edən problem olaraq qalmaqdadır. Çünki "siyasi həyatımızın bütün sahələrində olduğu kimi, tariximizin araşdırılmasında da kənardan boynumuza qoyulmuş boyunduruq altında yaşamışıq, amma çubuq boyunduruğu boynumuza qoyanların əlaltıları, jonqlyorları olan özümüzünkülərin əlində olub" (7, səh.8).

Azərbaycan tarixinin qədim dövrə aid tədqiqatların əsas müəlliflərindən biri olan İ.H.Əliyevin fikrincə, səlcuq oğuzlarının gəlişinə qədər Azərbaycanın cənubunda irandillilər, şimalında isə dağıstandillilər (qafqazdillilər) yaşamış, türklər gəldikdən sonra isə hər iki hissədəki yerli əhalini gəlmələr assimilyasiyaya uğradaraq türkləşdirmişlər. Bu fikirləri İqrar Əliyev XX əsrin 60-cı illərindən bəri hər bir əsərində dəfələrlə söyləmişdir. Özü də ağrılısı ondan ibarətdir ki, o, bu fikirlərində abayevlərə, qrantovskilərə, novoseltsevlərə, dyakonovlara, şanidzelərə, yeremyanlara, yəni azərbaycanofob, türkofob əcnəbi dilçi və tarixçilərə əsaslanıb irəli sürmüşdür, həmin fikirlərə qarşı çıxıb öz "mülahizələrini söyləyənlərə isə,

elmdə "avtoritet" olduğunu israr edərək, onları elmdən xəbərsizlər" adlandırmışdır. Görünür "avtoritet" alim unudurdu ki, "...ümumiyyətlə, xalqın tarixini istisnasız şəkildə onun əleyhdarının mövqeyindən öyrənmək olmaz" (6, s.106).

X-XI yüz il oğuzları Azərbaycana gəldikdə burası türklər üçün "kəşf olunmuş", artıq "Ötükən Yış" olmuş bir ölkə idi. Burada vətən bulmuş, sıx toplum halına gəlmiş türklər Trasqafqazın başqa bölgələrində, Ermənistanda və Gürcüstanda da artıq yerləşib yaşamaqda idilər. Miladdan sonrakı I minilliyin ortalarında erməni kilsə dilində yazılmış kitablarda tel, hot(ot), pərdi, aruq kimi azərbaycan türkcəsindən alınmış sözlərin işlənməsi yalnız bununla bağlı idi (13, səh.62). XIX əsr alman şərqşünası A.D.Mordtman yazırdı ki, burada söhbət "eramızın IV, V, VI və VII yüzillərində yazılı erməni dilində işlənmiş türk sözlərindən gedir, halbuki o zaman bir kimsə səlcuqlar, osmanlılar və başqaları haqda heç bir şey eşitməmişdi" (13, səh.62-63). Qədim erməni kitabları kilsə ruhanilərinin düşüncəsi və əli ilə yaradılırdı. Onlar isə xristian kitablarına bütpərəst "barbar dünyası" dillərindən hər hansı bir sözcüyün gətirilməsini böyük qısqanclıqla qarşılayırdılar. Amma, görünür, qonşu xalqlar arasındakı gündəlik dil anlaşması üstqurum yasaqlarına güc gəlirdi. IV-VII yüzillərdə və bu yüzillərdən öncə türk toplumu Transqafqaz vətənində oturub, yaşamasa idi, onun dilindən alınma sözlər qonşu xristian yazılı qaynaqlarında yer ala bilməzdi.

IV-VII yüzillərin kitablarında Mordtmanın üzə çıxardığı sözcüklər sadəcə türk sözləri deyil, Oğuz sözləridir. Transqafqaz bulqarları, bun türkləri, albanlar, kəngərlər içərisində heç bir oğuz və ya oğuz-qıpçaq dil ünsürü yox idisə, bu oğuz sözcüklərini külək və ya yağışmı gətirmişdi əski erməni kitablarına?

Yuxarıda adını çəkdiyimiz alman alimi, Mordtman yazırdı: "Məlumdur ki, ermənilər hind-avropa mənşəli xalqdır, amma onların dili Turan (türk) dilinin güclü təsirinə məruz qalmışdır. Mən həmin ifadə ilə heç də çoxəsirlik kontakt nəticəsində osmanlı türklərindən alınmış sözləri nəzərdə tutmuram. Söhbət, IV, V, VI və VII yüzillərdə erməni ədəbi dilinə keçmiş Turan elementlərindən gedir. Bu elə bir dövr idi ki, dünyada hələ nə səlcuqlar, nə də osmanlılar var idi" (17, səh.108-109). XIX əsr erməni tarixçisi K.Patkanyan isə IV əsrdə türk dilinin nəinki erməni, gürcü dilinə





də təsirindən bəhs edir, 440-cı ildə erməni dilinə tərcümə edilmiş, erməni əlifbası ilə yazılmış "İncil" də türk sözlərindən istifadə olunduğundan xəbər verir. Antik mənbələr, bu dövrə aid tədqiqatlar göstərir ki, Hun ittifaqının miqrasiyasına qədər ÖN Asiya və Qafqazda türk mədəniyyəti dominant mədəniyyət olmuşdur (17, səh.109).

Erməni yazıçısı S.Kaputikyan "Krovlya Armenii" əsərində yazır: "Deyilənə görə Xristofor Kolumbun "Santa Mariya" gəmisində Martiros adlı bir uzaq həmtayfası da olub və sahilə çıxan dəniz səyyahları ilə yerli əhalinin anlaşması prosesində işlədilən dillərdən biri də erməni dili olmuşdur. Daha sonra o yazır ki, bu belədir, ya yox, mübahisə edə bilmərəm, amma təkzibedilməz fakt ondan ibarətdir ki, bu zamandan etibarən getgedə daha çox erməni əllərinə sərgərdan əsası alaraq naməlum ölkələrə yola düşmüşlər..." (22, 3). Məsələ burasındadır ki, erməni müəllifinin bəlkə də təxəyyülünün məhsulu olan bu nağıla oxucuları inandıra bilmişdir, lakin deyiləndə və yazılanda ki, hələ eramızdan 30-20 min il əvvəl Altaydan, Sibirdən o zaman Asiya ilə Amerikanı birləşdirən quru zolağı vasitəsilə (indiki Berinq boğazı) türklərin ulu əcdadları Amerikaya getmişlər (sonrakı minilliklərdə də əcdadlarımız Amerikaya və digər qitələrə köçlərini davam etdirmişlər) və Kolumba qədərki Amerika mədəniyyətinin təşəkkülü ilk növbədə onların adı ilə bağlıdır – buna inanmırıq ki, nağıldır. Madridin "Real" futbol klubunun baş məşqçisi Joze Maurinyo 2010-2011-ci illər İspaniya çempionatında "Real"ın "Barselona"ya böyük hesabla uduzmasından sonra yetirmələrini sakitləşdirmək məqsədilə deyir: "Uşaqlar narahat olmayın, çox yaxşı oynadınız, nə etmək olar ki, bu qarşılaşmada "Messi problemi" var.

İndi nə edək ki, bizim bəzi ziyalıların, tariximizlə maraqlanan oxucuların siyasi ideologiyanın buxovundan az-çox dərəcədə xilas olan tarix elminin, xüsusən türk xalqları tarixinin əvvəllər tədqiq edilə bilməyən köklü problemlərini araşdıran müəllifləri mütaliə etməmək, bəzən isə həmin araşdırmalarla tanış olanda belə ona nağıl deyərək "inanmamaq problemi" var.

Bütün "izm"lərin qorxu və xofundan azad olan alman alimi Fon Dits zaman maşınının əqrəblərini e.ə. VII əsrə, Homerin zəmanəsi üzrə qurur. Azərbaycan ədəbiyyatşünasları və tarixçiləri isə bizim eranın X əsrindən o yana – keçmişə adlaya bilmirlər... Halbuki Dits bundan 2700 il əvvəli

əyani görür, Homerə dastan söyləyən Oğuz qocalarını, ozanlarını, Azərbaycan ağsaqqallarını tam təsəvvürünə gətirir... Fon Dits bədii ədəbiyyatın inkişaf qanunauyğunluqlarını, ədəbi proseslərin məntiqi nəticələrini elmi dəqiqliklə izləyə bilir. Ona görə də çox rahatlıqla bu nəticəyə gəlir ki, Oğuz dastanları (Dədə Qorqud) "İliada" və "Odisseya"dan əvvəlki dövrə aiddir. Bizim ədəbiyyatşünaslar və tarixçilərin isə... buna inanmaqları gəlmir, başqalarının təsiri ilə yaratdıqları qəfəsdən çıxa bilmirlər (10, səh. 62-63 və s.).

Bu problem ətrafında hələ çox yazılacaq, onun tarixi həqiqətə uyğun həllinə qədər elmi mübahisələr gedəcək və bu prosesdə müxtəlif mülahizələr fikirlər, rəylər ortaya çıxacaqdır. Belə də olmalıdır. Hər hansı bir obyektiv reallığın, o cümlədən tarixi hadisənin mahiyyətinin fərqli qavranılması çoxdan elmi dərketmə prosesinin təbii və həm də zəruri komponenti kimi elmdə hamı tərəfindən qəbul olunmuş normadır. Çünki müzakirə, mübahisə və fikir mübarizəsi olmasa heç bir tarixi gerçəkliyi aşkara çıxarmaq mümkün olmazdı.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. С.Х.Алишев. Древний тюркский мир. Казан, 2000, 71 с.
2. Алиев И.Г. Очерк истории Атропатены. Баку, Азернешр, 1989, 160 с.
3. А.Бушков. Чингизхан. Неизвестная Азия, ЗАО «Олма медиагрупп». Москва, 2007, 554 с.
4. Грим Грижимайло Г. Западная Монголия и Урянхайский край. Т.2. Ленинград, «Наука», 570 с.
5. Гумилев Л.Н. Древние тюрки. Москва, «Наука», 1967, 536 с.
6. L.N.Qumilyov. Qədim türklər. Bakı, Gənclik, 1993, 535 s.
7. Qeybullayev Q. Qarabağ. Etnik və siyasi tariximizə dair. Elm, Bakı, 1990, 248 s.
8. Капитукян С. Кровля Армении. М., 1981, 445 с.
9. Закиев М.З. Происхождение тюрков и татар. Москва, «Инсан», 2003, 496 с.
10. Məmmədov A. Oğuz səltənəti. Azərbaycan Dövlət Nəşriyyatı – Poliqrafiya Birliyi. Bakı, 1992, 300 s.
11. Менгес К.Г. Восточные Элементы в «Слове о полку Игорове», «Наука», Ленинградское отделение. Ленинград, 1979, 249 с.
12. Историография истории СССР. Изд-во «Высшая школа». Москва, 1971, 460 с.
13. Süleyman Əliyarlı, Tariximiz açıqlanmamış mövzuları ilə. Mütərcim, Bakı, 2012, 560 s.







14. Топчибашов А.А. Дипломатические беседы в Стамбуле (1918-1919) «Эргюн», Баку, 1994, 160 с.
15. Turan № 1, Tarixi, ədəbi publisistik jurnal. 1991, 128 s.
16. Томас Манн. Иосиф и его братья. Т.1. Москва-Мюнхен, 2004, «Памятники литературы», 827 с.
17. X.D.Xəlilli, Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi, Bakı, «MBM» MMC, 2007, 384 s.
18. «Этнические проблемы истории Центральной Азии в древности (II тысячелетия до н.е.)». Москва, «Наука», 1981, 375 с.


## FACTS THAT PREVENT THE CORRECT INVESTIGATION OF THE ETHNOGENESIS OF THE TURKS
## SUMMARY


The article is devoted to an interesting problem, which is also a subject of polemics, with scientific relevance in our contemporary history.

Based on some sources, monographs, works of historians of foreign and post-Soviet countries, historical facts of modern Russian historians, the author reveals the factors that hinder the correct investigation of the ethnogenesis of the Turks, even the falsification of their origin, the biased views and opinions and tried to prove that he had a chauvinist character.

According to the comparative analysis of historical and archaeological literature, the authors of the article have come to the conclusion that, for many years, the national affiliation of the Turks and the ethnogenesis of Europe during the Russian Empire and the Soviet Union, first of all was studied by European centrism, its peoples "The history and non-historical" selection and barbarism have been the main obstacle to incorporating the thesis on the ethnic history of peoples and the adoption of it in official historiography.

On the other hand, since history has transformed its learning function from the point of view of becoming a tool to serve the interests of politics and politicians, that is, the essence of historical events has been hindered by the scientific solution to the problem we are facing after it has begun to falsify its true value.

Finally, the author concludes that the problem of uncertainty over historical facts, which is the outcome of writing new works as a result of favorable public-political conditions for the study of the true essence of the history of nations, especially the Turks after the collapse of the USSR, and the lack of courage in the criticism of old stereotypes.